**AĞAMALIYEVA FİDAN HƏMDULLA**
*Bakı Dövlət Universiteti*

# ABDULLA ŞAİQİN «GÖZƏL BAHAR» PYESİNDƏ FOLKLORİZM

Abdulla Şaiq Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biridir. Yaradıcılığının ilk dövrlərində şeirlər, hekayələr yazan A.Şaiq sonrakı dövrlərdə də uşaqlar üçün bədii əsərlər yazmağa başlamışdır. Xüsusilə onun uşaqlar üçün yazdığı dram əsərləri onun yaradıcılığının müxtəlif dövrlərini əhatə edir. Dram yaradıcılığının ilk dövrlərində uşaqlar üçün yazan A.Şaiq sonralar müxtəlif mövzularda da əsərlər yazmışdır. Abdulla Şaiq üç inqilab, iki dünya müharibəsi, vətəndaş müharibəsi, Böyük Vətən müharibəsi görmüş bir sənətkardır. Bəkir Nəbiyev iftixar hissi ilə qeyd edir ki, «Professional bir uşaq yazıçısı kimi Azərbaycan ədəbiyyatında istər inqilabdan əvvəl, istərsə də sonra öz xidmətləri ilə Abdulla Şaiqə bərabər ikinci bir sənətkar göstərmək çətindir. Bəlkə də elə buna görədir ki, yaşımızdan asılı olmayaraq, bizim hərəmizin qəlbində özünəməxsus bir Şaiq guşəsi var: həmişə füsunkar, həmişə təravətli bir guşə!» (8, s.240).

Onun yaradıcılığını şaxələndirsək, bu pyeslərdə folklora bağlılıq çox geniş şəkildə üzə çıxır. Məlum olduğu kimi, ibtidai insanların arzu və xəyalları folklorda həmişə öz əksini tapır. Xalq gündəlik həyatda qarşılaşdığı çətinlikləri idealizə edərək, başına gələn hadisələri simvollaşdıraraq bədii düşüncənin məhsuluna çevirir. Onların həyatdakı arzu və istəkləri romantik şəkildə duyğulandırması folklorda romantik üslubun bədii formada əks olunmasna səbəb olur. «Yaxşı üslub nə deməkdir? Uzunçuluqdan qaçıb qısa və mənalı yazmaq, təsvirlərdə tam, düzgün və dəqiq bədii mənzərələr və surətlər yaratmağı bacarmaq, fikri sadə və aydın ifadə etmək, insan xasiyyətlərini təsvir edərkən hər bir xasiyyətə uyğun dil tapmaq, jarqona, əyalətçiliyə yol verməmədən ümumi Azərbaycan ədəbi dili dairəsində hərəkət etmək, xülasə, elə yazmaq ki, oxumaq asan və xoş olsun» (6, s.199).

Folklor romantizminin ən bariz nümunələrinə A.Şaiqin pyeslərində rast gəlirik. Bu yaradıcılıq üslubu həm də A.Şaiqin yaradıcılığındakı romantik meyllərlə üst-üstə düşürdü. Biz A.Şaiqin yaradıcılığındakı romantizmin dəyərləndirilməsini M.C.Cəfərovun fikirlərində görürük. A.Şaiqin romantizmi haqqında M.C.Cəfərov yazır: «XX əsr Azərbaycan romantizmi ilə Azərbaycan realizmi arasında uçurum, Çin səddi olmamışdır. Yəni bu romantizm realizmə qarşı olmamışdır, əksinə, dövrün qabaqcıl ədəbi cərəyanı olan realist üslubdan müsbət mənada təsirlənə-təsirlənə inkişaf etmişdi» (2, s.24 - 31). Bu sitatdan da aydın olur ki, A.Şaiqin dram yaradıcılığının romantizm dövrünə həm də folklor romantizmi kimi baxmaq olar. Əgər biz Şaiqin yaradıcılığındakı romantizmlə realizmdən danışmaq istəyiriksə, ilk növbədə bu romantizmin köklədiyi folklor dünyagörüşündən bəhs etməliyik. Bu faktı gözəl tutan K.Əliyev yazır ki, romantizm və folklor probleminə mücərrəd bir anlayış kimi baxmaq olmaz, çünki bu problem bədii mətndən, faktik materialdan və ədəbi şəxsiyyətlərdən təcrid deyildir (3, s.149).

A.Şaiqin dram yaradıcılığının folklorla bağlılığı uşaqlar üçün əsərlərin olmamasından, uşaqların belə əsərləri tez qavramasından, uşaq zövqünü folklor mövzuları ilə tərbiyə etmək istəyindən irəli gəlirdi. Bu cəhətdən dramaturqun «Gözəl bahar» pyesi uşaqların əxlaqına, tərbiyəsinə təsir edən ilk bədii əsərdir. M.Ağamirov «Gözəl bahar» pyesinə fəlsəfi nöqteyi-nəzərdən baxır. O, belə bir fəlsəfi fikri əsas tutur ki, «Gözəl bahar» peysində Şaiq təbiət sərvətlərinin insana xidmət etməli olduğunu əsas ideya kimi şərh edir (1, s.28). Bu ideyanı M.Ağamirov düzgün tutmuşdur. O, Abdulla Şaiqin təbiət haqqındakı fikirlərinin haradan gəlməsini şərh etməsə də, Şaiq yaradıcılığındakı bədii obrazlaşdırmanın mahiyyətini aça bilmişdir. M.Ağamirov yazır: «Şairin bildirdiyinə görə, torpaqla yanaşı təbiət nemətlərindən olan su da insanlara xidmət etməli, ondan da insanların rifahı üçün istifadə olunmalıdır» (1, s.29). O, Şaiqin təbiət ünsürlərini insanlaşdırmasını, su ilə bağlı xalq düşüncəsini əsas götürərək, inqilabdan əvvəlki illərdə təbiətdə hərəkətsizlik halının yanlış olduğuna qarşı çıxdığını qeyd edir. O, bu folklor hadisəsini belə təsvir edir: «Gözəl bahar» pyesində «dəyişdi təbiət, dəyişdi zaman, al-əlvan rənglərə büründü hər yan» deyən şair təbiətdə belə ümumi dəyişmə hadisəsinin (metamorfoz) mövcud olduğunu təsdiq edirdi» (1, s.29).

Müəllif əsərin personajlarını seçərkən təbiət qüvvələrinə xüsusi yer vermişdir. Məsələn, qış obrazı təbiətin ən soyuq vədəsidir. Boran, Külək, Bulud isə Qışı səciyyələndirir. A.Şaiq Bahar obrazını təbiətin ən füsunkar qızı kimi təqdim edir. Baharı fəsil kimi antropomorflaşdırma obrazın insan kimi düşünülməsindən irəli gəlir. Baharı səciyyələndirən bir neçə başqa obrazlar da pyesə əlavə olunmuşdur. Bunlar Günəş, Su, Torpaq, Qaranquş və Bülbüldür.

A.Şaiqin yaradıcılığında təbiət mövzusu əsas yer tutur. «Gözəl bahar» pyesində təbiəti vəsf etmək və obrazlarla vermək ənənəvi olaraq Şaiqin folklordan bəhrələnməsindən irəli gəlir. Bu, əsərin məzmunundan da hiss olunur. Məsələn, Qış qoca kişi qiyafəsində təqdim olunur. A.Şaiq təbii bənzətmələrlə Qışın buzlarını onun bığları kimi verir. Mövzu etibarilə «Gözəl bahar» pyesi «İdeal və İnsanlıq» pyesinə çox yaxındır. Burada sadəcə olaraq personajların adı dəiyşdirilmişdir. Bahar obrazını İnsanlıq obrazı əvəz etişdir. Qış isə Şeytan obrazına yaxındır. Bu əsərlərdəki yardımçı obrazlar da bir-birinə uyğundur. Pyes Baharla Qışın mübarizəsinə həsr olunmuşdur. Pyesin mövzusu maraqlı seçilmişdir. Xalq təfəkküründə təbiət qışda ölür, baharda dirilir. Bu ölüb-dirilmədə qışla Baharın arasındakı mübarizə ona gətirib çıxarmışdır ki, insanlar onları canlı təsəvvür etmiş, özlərinə məxsus xüsusiyyət və keyfiyyətləri onların üzərinə köçürmüşlər. Əslində əsər folklor motivləri əsasında yazılmışdır. Buradakı obrazların hamısına insanlar səcdə edirlər. Məsələn, Günəş bütün canlıların tələbatıdır, günəşə insanlar səcdə edirlər. Onun bir çox xüsusiyyətlərini nəzərə alan ibtidai insanlar günəşi mifikləşdirmiş, onu hər şeyin yaradıcısı saymışlar. Eləcə də Külək haqqında mifoloji təsəvvürlər folklorda Yel baba obrazının əmələ gəlməsinə səbəb olmuşdur.

Abdulla Şaiqin pyeslərindəki folklorizm şifahi ənənədəki metafizik düşüncənin təsiri ilə folmalaşmışdır. A.Şaiqə görə hər bir şeyin, varlığı əsası vardır. Var olan hər hansı bir əşya, sonda yoxa çevrilə bilir, yoxdan isə heç bir şey törəyə bilmir. Nağıllardakı «Biri var idi, biri yox idi» formulu ölümlə olum arasında özünü təsdiq edir. Abdulla Şaiqin yaradıcılığına əsaslanaraq demək olar ki, uşaq ədəbiyyatında folklordan istifadənin imkanları 3 cürdür:

1. Şifahi ədəbiyyatdan alınan mövzunu kiçik bir dəyişikliklərlə işləmək (4, s.127);

2. Şifahi xalq yaradıcılığı xəzinəsindən bir neçə mövzu götürüb yeni əsər meydana çıxartmaq (4, s.136);

3. Uşaq ədəbiyyatında xalq yaradıcılığı üslubunda, lakin heç bir folklor nümunəsinə əsaslanmadan yaradılan əsərlər (4, s.142).

Onu qeyd edək ki, cəmiyyətdə baş verən proseslər, insanlar arasındakı mübarizə, çəkişmə və s. folklorda təbiətin üzərinə köçürülür. A.Şaiq də xalq yaradıcılığını dərindən bilən bir sənətkar kimi bu mövzudan istifadə edərək uşaq təbiətinə uyğun dram yazmışdır. Təbiətdə Qış Bahardan qorxur. Bu xüsusiyyəti dərindən duyan sənətkar Qış obrazının da varlığında bu xüsusiyyəti əks etdirmiş, baharın ondan üstün olduğunu lirik hisslərlə vermişdir. Məsələn, pyesdə Qış deyir ki

Tükənməz qüvvətim yeri titrədir,
Yalnız bu günəşə olmuşam əsir.
Göydə parlarkən o, əriyir qarım,
Qalmayır dünyada dövlətim, varım. (10, s.421)

Əsərdə Boran Qışın oğlu kimi təsvir edilir. O, Günəşi məhv etməyə çalışır. Folklorda kəskin konflikt olmadığından bu əsərdə də mifoloji boyalarla süslənmiş Qışla Baharın mübarizəsində də ciddi konflikt yoxdur. Bunu Qış özü də etiraf edir. O, Baharı özünə düşmən saymır. Onun da Bahar üçün xidmətləri vardır. Məsələn, torpaqdakı qurd-quşu, ziyanvericiləri məhv edir.

Qarlarımı parça-parça səpərəm
Yorğan kimi yer üzünə döşərəm.
Qar altında yer buğlanar bir qədər,
Rahatlanar, güclənər, qüvvətlənər.
Bu azmı xidmətdir gözəl Bahara?
Bu xidməti anlamayır, nə çara? (10, s.421)

Dramaturq Baharla Günəş arasında olan birliyi sübut edən yaradıcı metoda əl atmışdır. Belə ki, Qaranquş baharın müjdəsini dimdiyində bənövşə gətirib Günəşə verir. Xalq təfəkküründə qar altından ilk bənövşənin boynunu bükərək çıxması baharın gəlişini xbər verməsi kimi simvollaşmışdır. Bu çox maraqlı tapıntıdır. Bunu şeir dilinə gətirmək, incə hisslərlə ifadə etmək, həm də uşaq qəlbinə sirayət etdirmək sənətkardan böyük ustalıq tələb edir.

Şair-dramaturq Baharın Qışa göndərdiyi bənövşə məktubunu belə qələmə alır:

Qızıl Bahardan, al, məktubdur sana,
Çarpışırsan, deyir, çıxsın meydana!
Su, Torpaqdan, Günəşdən əsgərim var
Bir vuruşda onu edər tar-mar. (10, s.422)

Qış Baharın bu «məktub»undan sonra özünün məktub alacağını düşünüb, nə qədər müqavimət göstərsə də, axırda Baharın gəlişini alqışlayır, onun nəğməsini dinləyir:

Ellər, ellər, ay ellər!
Çiçəklənir bax, çöllər.
Yaşıllaşır bağ, çəmən
Bir səs gəlir hər yerdən:
Xoş gəldin qızıl Bahar
Yaşa-yaşa bəxtiyar! (10, s.423)

Artıq birinci səhnədən Baharın qələbəsi təmin olunmuşdur. İkinci səhnədə təbiətin oyanması təsvir olunur. Bülbül və Qaranquş səs-səsə verir. Quşlar nəğmələrini oxuyurlar, insanları əmək fəaliyyətinə səsləyirlər. İkinci səhnədə şair-dramaturq folklordan bizə məlum olan çərşənbələrdəki günəşli, boranlı, buludlu, yağışlı günlərdən poetik şəkildə bəhs edir. Sənətkar bunu o qədər ustalıqla edir ki, ayıq-sayıq oxucu Baharın ilk gəlişində Boranın, buludun, Küləyin müvəqqəti hökmranlığını şairin misralarından xatırlamalı olur. Bunu oynamağa çıxan çocuqlar da hiss edirlər. Təbiətdəki aldanışlığa inanan uşaqlar evlərinə qaçırlar. Bu da Mart ilə Qarının sözləşməsini bir daha yada salır. Uşaqlar təbiətin şıltaqlığına inanıb çölə çıxanda, oyun oynayanda Günəşin üzünü bulud örtür. Külək vıyıldayır. Uşaqlar qaçır. Qarı da baharın erkən gəlişinə sevinib Martı acılayır, keçilərini çəmənə sürür. Mart isə ona son gücünü göstərir, qarının keçilərini soyuqdan qırır. Abdulla Şaiq Baharın ilk gəlişinin hələ davamlı olmadığını xalq poeziyasına uyğun şəkildə, folklordan bəhrələnərək bədii boyalarla yarada bilir.

Xalq poeziyasından fərqli olaraq, yəni xalq şeirindəki qarşıdurma həll olunmasa da, Şaiqin poeziyasında məsələnin həlli tapılmışdır. Şair Qışın qüvvələrinin öz ralarındakı intriqasını onların məğlubiyyətlərinin nəticəsi ki-

mi qələmə alır. Bahara son dəfə güclərini göstərmək istəyən Boran, Külək, Bulud Qışsız tək qaldıqlarından öz ralarında çəkişirlər. Hərə özünün üstün olduğunu söyləyir. Onlar öz aralarnda çəkişmələri ilə başa düşürlər ki, ömürləri sona yetmişdir, əgər yenidən yaşamaq istəyirlərsə, Baharla dost olmalıdırlar. Günəş yenilməz pəhləvandır. O, öz şüaları ilə Boranı məhv edir.

Bu pyev əsl uşaq marağına uyğun olaraq yazılmışdır. Uşaqları təbiətlə tanış etməyin bədii üsulunu tapan sənətkar səhnəyə Qızılgül, Arı, Zanbaq, Kəpənək, Qərənfil, Bənövşə, Durna, Turac, Qırqovul, Tovuz kimi şəxsləndirilmiş obrazları səhnəyə gətirir. Burada məqsəd onların təbiətdəki özləri haqda uşaqlarda təsəvvür və assosiasiya yaratmaqdır.

A.Şaiqin yazdığı səhnə əsəri təkcə uşaqları əyləndirmək, onların zövqünü oxşamaq məqsədini güdmür. Bu pyes oxucuların bütün təbəqələrini öz maraq dairəsinə alır. Bunu nədə görmək olar? A.Şaiq əsərin tamamlanması üçün gözəl final axtarıb tapmışdır. Biz əsərin sonunda Baharı bir sərkərdə, el başçısı qiyafəsində görə bilirik. Bütün iştirakçılar onun şəninə nəğmələr oxuyur. Qışın gəlməsi təhlükəsi vardır. Bahar tərəfdaşlarına onu tutub gətirməyi əmr edir. Qış gəlib onun hüzurunda öz gücü ilə qürrələnir. Bahar İldırıma, Şimşəyə əmr edir ki, onun canını alsınlar. Bundan sonra Bahar el şənliyinə qoşulur. İştirakçılar dəstələrə bölünüb keçmiş toylarda oxunan mərasim nəğməsinə (toy nəğməsinə) oxşar nəğmə oxuyurlar.

Ağ tərək, ağ tərək
Adı gözəl kim gərək?
Bizə şən bahar gərək
Tarnan gəlsin, zurnaynan
Həm tar, həm zurnaynan (10, 438)

Məclis iştirakçılarının hamısının adına bu nəğmədə tərif deyilir.

Abdulla Şaiq 1910-cu ildə qələmə aldığı «Gözəl bahar» pyesini azadlığın rəmzi adlandırır. T.Xəlilova Y.İsmayılovun bu əsəri Füzulinin «Söhbətül-əsmar», Sabirin «Ağacların bəhsi» kimi alleqorik əsərlər sırasına aid etməsini təqdir edir (9, s.62).

Mikayıl Rzaquluzadə A.Şaiqin dram əsərlərini çox yüksək qiymətləndirirdi. O, Şaiqin yaradıcılığının ilkin çağında «Gözəl bahar» (1910) pyesini yazmasını uşaq dramaturgiyasının əsasını qoymaq kimi qiymətləndirirdi. O, fikrinə davam edərək yazırdı ki, «Bir saatlıq xəlifəlik» (1911), «Çoban Mə-

miş» (1912), «Xəbərçi kağız» (1912), «İntiqamçı xoruz» (1912), «Danışan kukla» (1913) kimi pyesləri hələ inqilabdan qabaq gənc nəsildə vətənpərvərlik, xalqa, əməyə, təbiətə məhəbbət ruhu, istismar dünyasına, xalqı qarət edənlərə, ictimai bərabərsizliyə haqq qazandıranlarına qarşı nifrət, qəzəb oyadırdı (11, s.356).

«Gözəl bahar» üçpərdəli mənzum pyesinin lk variantı A.Şaiqin dram yaradıcılığının ilk dövrünə aiddir. Əsər 1910-cu ildə yazılmışdır. Sonradan A.Şaiq bu əsərin üzərində işləmişdir. 1911-ci il martın 11-də T.Şahbazi, B.Talıblı və Tağı Əliyevin iştirakı və köməyi ilə keçirilən müsamirədə A.Şaiqin «Gözəl bahar» pyesi tamaşaya qoyuldu. Həsənbəy Zərdabinin həyat oldaşı Hənifə xanım Məlikova və digərləri tamaşaya bədii tərtibat verdilər. Tamaşa böyük müvəffəqiyyətlə keçdi. Marinski qız gimnaziyasının müdiri və müəllimləri tamaşanı öəyəndilər. İkinci gimnaziyanın müdiri realni məktəbin müdirinə təəccüblə demişdi ki, inqilabi ruhda yazılmış belə əsəri oynamağa nə üçün icazə verirsiniz? O zaman Şaiqin xətrini çox istəyən İ.V.Denfer susmuşdu (7, s.79 – 80).

Həqiqətən də «Gözəl bahar» alleqorik pyesində Şaiqin tənqid hədəfi çarizm idi. Qış mütləqiyyəti, zülmü, istismarı, Bahar azadlığı, səadəti təmsil edir. Başqa iştirakçılar – fəsillər, ayrı-ayrı təbiət qüvvələri də müəyyən ictimai məna daşıyır (5, s.118). A.Şaiq özünün ictimai fikirlərini folklorun dili ilə verirdi. «Gözəl bahar» pyesi onun yaradıcılığında seçilən ən yaxşı əsərlərdən biridir.

## ƏDƏBİYYAT

1. Ağamirov M. Abdulla Şaiqin dünyagörüşü. Bakı: Maarif, 1983, 242 s.
1. Cəfər M. Azərbaycan ədəbiyyatında romantizm, Bakı: Azərbaycan SSR EA Nəşriyyatı, 1963, 217 s.
2. Əliyev K. Romantizm və folklor. Bakı: Elm, 2006, 160 s.
3. Əzizov Ə. Azərbaycan sovet uşaq ədəbiyyatının inkişaf yolu. Bakı, Gənclik, 1968, 156 s.
4. Əzizov Ə. Uşaqların sevimliləri (XX əsr Azərbaycan uşaq ədəbiyyatı tarixindən). Bakı: Gənclik, 1978, 126 s.

5. Məmməd Arif. Seçilmiş əsərləri. 3 cilddə. 1-ci cild. Bakı: Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, 1967, 620 s.
6. Məmmədov Ə. Abdulla Şaiq. Bakı: Gənclik, 1983, 212 s.
7. Nəbiyev B. Söz ürəkdən gələndə (ədəbi tənqidi məqalələr). Bakı: Yazıçı, 1984, 284 s.
8. Xəlilova T. Abdulla Şaiqin tərcümə yaradıcılığı. Bakı: Yazıçı, 1982, 180 s.
9. Şaiq A. Əsərləri. 5 cilddə. 3-cü cild, Bakı: Azərnəşr, 1972, 652 s.
10. Şaiq A. Xatirələrim. Bakı: Gənclik, 1973, 364 s.

**Ф.Г.Агамалыева**

## ФОЛЬКЛОРИЗМ В ПЬЕСЕ «ГЁЗЕЛЬ БАХАР» А.ШАИГА РЕЗЮМЕ

В пьесе «Гёзель Бахар» сталкивается зима и весна как образы. Зиму представляет как старуху, а весну в образе молодой девушки. В борьбе весна побеждает.

**F.H.Aqamaliyeva**

## FOLKLORIZM IN THE PLAY "GOZEL BAHAR" OF A.SHAIG. SUMMARY

In the play "Gozel Bahar" collides winter and spring as two images.Winter is presented as the old woman, but spring presented in the image of the young girl.In this struggle wins the spring.